# 2024-cü ildə “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə nəticələrinə dair HESABAT

“Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının (bundan sonra – Fərman) 2.4-cü bəndi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə (bundan sonra – Dövlət Agentliyi) “ASAN xidmət indeksi”ni təşkil edən parametrləri rəhbər tutmaqla, Dövlət Xidmətlərinin Elektron Reyestrinə (bundan sonra – Elektron Reyestr) daxil edilmiş xidmətlərin qiymətləndirilməsi tapşırığı müəyyən edilmişdir.

Qeyd edilən tapşırığın icrasını təmin etmək üçün Elektron Reyestrə daxil edilən dövlət xidmətlərinin qiymətləndirilməsi mexanizminin elmi yanaşma tətbiq edilməklə qurulması məqsədi ilə “ADA” Universitetinin cəlb edilən mütəxəssisləri ilə birgə müxtəlif sahələrdə müştəri xidmətlərinin qiymətləndirilməsi ilə bağlı beynəlxalq təcrübələr araşdırılmış və qiymətləndirmənin həyata keçirilməsinə informasiya-kommunikasiya texnologiyalarının da tətbiqini nəzərdə tutan “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə” altsistemi formalaşdırılmışdır.

“Dövlət xidmətlərinin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi Qaydaları” (bundan sonra – Qaydalar) hazırlanaraq Dövlət Agentliyinin Kollegiyasının 2016-cı il 17 oktyabr tarixli 1/1-06 nömrəli Qərarı ilə təsdiq edilmiş və Hüquqi Aktların Dövlət Reyestrində 15201610171106 nömrəsi ilə qeydiyyatdan keçirilərək 2016-cı il 1 noyabr tarixində qüvvəyə minmişdir. Qaydalarda Fərmanda müəyyən edilən parametrlər nəzərə alınmaqla meyarlar və altmeyarlar, o cümlədən “ASAN xidmət indeksi”nin hesablanma mexanizmi öz əksini tapmışdır (http://www.e-qanun.az/framework/34012).

2017-ci il üzrə hesabat dövrü ərzində pilot layihə çərçivəsində 10 mərkəzi icra hakimiyyəti orqanlarının 178 xidməti və Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanlarının 234 xidməti daxil olmaqla ümumilikdə 412 xidmət qiymətləndirilmişdir.

2018-ci il üzrə hesabat dövrü ərzində 30 mərkəzi icra hakimiyyəti orqanının 353 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 234 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 47 xidməti daxil olmaqla ümumilikdə 634 xidmət qiymətləndirilmişdir.

2019-cu il üzrə hesabat dövrü ərzində 25 mərkəzi icra hakimiyyəti orqanının 336 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 234 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 47 xidməti daxil olmaqla ümumilikdə 617 xidmət qiymətləndirilmişdir.

2020-ci il üzrə hesabat dövrü ərzində 25 mərkəzi icra hakimiyyəti orqanının 270 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 229 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 55 xidməti daxil olmaqla ümumilikdə 554 xidmət qiymətləndirilmişdir.

2021-ci il üzrə hesabat dövrü 24 mərkəzi icra hakimiyyəti orqanının 227 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 124 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 48 xidməti daxil olmaqla ümumilikdə 399 xidmət qiymətləndirilmişdir.

2022-ci il üzrə hesabat dövrü 24 mərkəzi icra hakimiyyəti orqanının 254 xidməti, 15 yerli icra hakimiyyəti orqanının 171 xidməti və 9 hüquqi şəxsin 74 xidməti daxil olmaqla ümumilikdə 499 xidmət qiymətləndirilmişdir.

2023-cü il üzrə hesabat dövrü 23 mərkəzi icra hakimiyyəti orqanının 208 xidməti, 15 yerli icra hakimiyyəti orqanının 170 xidməti və 9 hüquqi şəxsin 60 xidməti daxil olmaqla ümumilikdə 438 xidmət qiymətləndirilmişdir.

2024-cü il üzrə hesabat dövrü 37 mərkəzi icra hakimiyyəti orqanının 167 xidməti, 23 yerli icra hakimiyyəti orqanının 89 xidməti və 15 hüquqi şəxsin 44 xidməti daxil olmaqla ümumilikdə 75 xidmət təminatçısının 300 xidməti qiymətləndirilmişdir. Həmçinin bildiririk ki, qiymətləndirilmiş 13 mərkəzi icra hakimiyyəti orqanının 43 xidməti, 8 yerli icra hakimiyyəti orqanının 32 xidməti və 2 hüquqi şəxsin 3 xidməti daxil olmaqla ümumilikdə 23 xidmət təminatçısının 78 xidməti Naxçıvan Muxtar Respublikasına aiddir.

“ASAN xidmət indeksi” üzrə qiymətləndirmə nəticələrinə dair hesabat ilə bağlı 2025-ci il 24 fevral tarixində təqdimat keçirilmişdir.

Hesabat ilində qiymətləndirilən dövlət qurumları və xidmət sayları barədə məlumatlar aşağıdakı cədvəllərdə də əks olunmuşdur.

| Dövlət qurumlarının adı | Xidmətin sayı |
|---|---|
| Mərkəzi icra hakimiyyəti orqanları | 167 |
| Yerli icra hakimiyyəti orqanları | 89 |
| Hüquqi şəxslər | 44 |
| **Cəmi** | **300** |

| Dövlət qurumlarının adı | Xidmətin sayı |
|---|---|
| **Mərkəzi icra hakimiyyəti orqanları** | **cəmi: 167 xidmət** |
| Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 11 |
| Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 10 |
| Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 9 |
| Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 8 |
| Azərbaycan Respublikasının Energetika Nazirliyi | 8 |
| Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 7 |
| Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 7 |
| Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi | 6 |

| | |
|---|---|
| Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 6 |
| Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 |
| Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 5 |
| Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 5 |
| Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 5 |
| Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 5 |
| Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | 5 |
| Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 5 |
| Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 4 |
| Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 4 |
| Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 4 |
| Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 4 |
| Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 4 |
| Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 4 |
| Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 4 |
| Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 3 |
| Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi | 3 |
| Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 3 |
| Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 3 |
| Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 3 |

| | |
|---|---|
| Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 3 |
| Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 2 |
| Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 2 |
| Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 2 |
| Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 2 |
| Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 |
| Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 |
| Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 1 |
| Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 1 |
| **Yerli icra hakimiyyəti orqanları** | **cəmi: 89 xidmət** |
| Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Pirallahı Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyəti | 4 |
| Abşeron Rayon İcra Hakimiyyəti | 4 |
| Sumqayıt Şəhər İcra Hakimiyyəti | 4 |

| | |
|---|---|
| Naxçıvan Şəhər İcra Hakimiyyəti | 4 |
| Şərur Rayon İcra Hakimiyyəti | 4 |
| Babək Rayon İcra Hakimiyyəti | 4 |
| Ordubad Rayon İcra Hakimiyyəti | 4 |
| Culfa Rayon İcra Hakimiyyəti | 4 |
| Kəngərli Rayon İcra Hakimiyyəti | 4 |
| Şahbuz Rayon İcra Hakimiyyəti | 4 |
| Sədərək Rayon İcra Hakimiyyəti | 4 |
| Bakı Şəhər İcra Hakimiyyəti | 1 |
| **Hüquqi şəxslər** | **cəmi: 44 xidmət** |
| Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi | 8 |
| “Azəriqaz” İstehsalat Birliyi | 5 |
| “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti | 5 |
| “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti | 5 |
| Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi | 4 |
| Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi | 3 |
| Azərbaycan Respublikasının Audiovizual Şurası | 3 |
| İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2 |
| “Naxçıvan İpoteka Fondu” Aşəq Səhmdar Cəmiyyəti | 2 |
| Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | 1 |
| İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 1 |
| Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 1 |
| Dənizkarı Bulvar İdarəsi | 1 |
| “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti | 1 |

Qiymətləndirmələr Elektron Reyestrin tərkibində yaradılmış “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə” altsistemi üzərindən elektron formada həyata keçirilmişdir. Ümumilikdə qiymətləndirmə 3 mərhələdən ibarət olmuşdur:

**1. MƏLUMATLARIN TOPLANILMASI**

Bu mərhələdə xidmətləri qiymətləndirilən dövlət qurumlarına göstərdikləri xidmətlər barədə məlumatları “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə” altsistemində formalaşdırılan anketlərə daxil etməsi və təsdiqedici sənədləri sistemə yükləməsi ilə bağlı imkanlar yaradılmışdır.

Dövlət qurumları tərəfindən məlumatların sistemə daxil edilməsi 2024-cü il 20 sentyabr tarixindən 2024-cü il 20 noyabr tarixinədək həyata keçirilmişdir.

Qeyd edilən müddət ərzində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin işləri Üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Naxçıvan Respublikasının Mədəniyyət Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Abşeron Rayon İcra Hakimiyyəti, Şahbuz Rayon İcra Hakimiyyəti, Sədərək Rayon İcra Hakimiyyəti, Babək Rayon İcra Hakimiyyəti, Naxçıvan Şəhər İcra Hakimiyyəti, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti, Dənizkənarı Bulvar İdarəsi və Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən qiymətləndirmənin aparılması üçün zəruri məlumatların sistemə daxil edilməsi təmin edilməmiş, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi, Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Bakı Şəhəri İcra Hakimiyyəti, Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyəti, Sumqayıt Şəhər İcra Hakimiyyəti, Culfa Rayon İcra Hakimiyyəti, Kəngərli Rayon İcra Hakimiyyəti, Şərur Rayon İcra Hakimiyyəti, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Audiovizual Şurası, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən qiymətləndirmənin aparılması üçün zəruri məlumatların sistemə daxil olunması isə qismən (10%-ə qədər) təmin edilmişdir.

**2. QİYMƏTLƏNDİRMƏ**

Dövlət Agentliyində Elektron Reyestrə daxil edilmiş xidmətlərin “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi məqsədilə Qiymətləndirmə qrupu (Dövlət Agentliyinin sədrinin 2024-cü il 18 noyabr tarixli 3-45/3-1-1251/2024 nömrəli Əmri əsasında) yaradılmışdır. 2024-cü il 2 dekbar – 24 dekabr tarixlərində həmin qrup tərəfindən Elektron Reyestrdə aidiyyəti dövlət qurumlarının doldurduqları elektron anketlər və yüklədikləri (daxil etdikləri) sənədlər (məlumatlar) əsasında qiymətləndirmə aparılmışdır.

Qiymətləndirmə 5 ulduz sistemi üzrə formalaşdırılan 155 altmeyar üzrə xidmətin cari vəziyyətinin yoxlanılmasını ehtiva edir. Belə ki,

- 1 ulduz sistemi üzrə - 33 altmeyar;
- 2 ulduz sistemi üzrə - 34 altmeyar;
- 3 ulduz sistemi üzrə - 31 altmeyar;
- 4 ulduz sistemi üzrə - 27 altmeyar;
- 5 ulduz sistemi üzrə - 30 altmeyar müəyyən edilmişdir.

1 və 2 ulduz sistemi üzrə müəyyən edilən altmeyarlar xidmətin təşkili və göstərilməsi ilə bağlı zəruri şərtləri (tələbləri) ehtiva edir. 3 ulduz sistemi üzrə müəyyən edilən altmeyarlar isə xidmətin kafi səviyyədə göstərilməsi üçün hədəflənən halları göstərir. Xidmətin təkmil və ya ən yaxşı formada təşkili və göstərilməsi ilə bağlı altmeyarlar isə 4 və 5 ulduz sistemində yer alır. Beləliklə, ulduz sistemi xidmətin mərhələli təkmilləşdirilməsini təmin edir və mənfi nəticə əldə edilən altmeyarların növbəti ildə təmin edilməsi ilə hədəflənən təkmil dövlət xidməti anlayışı və həmin xidmətin standartı formalaşmış olur.

## 3. NƏTİCƏNİN AÇIQLANMASI

Qiymətləndirmə nəticəsində Elektron Reyestrin hesabatlılıq modulu vasitəsilə dövlət qurumlarına təqdim ediləcək arayışlar formalaşdırılmışdır. Eyni zamanda, Fərmanın 2.5-ci bəndinə əsasən qiymətləndirilən 300 dövlət xidmətinin hər biri üzrə "ASAN xidmət indeksi"nin Elektron Reyestrdə yerləşdirilməsi təmin edilmişdir. Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi nəticələrinin qısa müddət ərzində Elektron Reyestr vasitəsilə ictimaiyyətə açıqlanması və müvafiq arayışların aidiyyəti dövlət qurumlarına göndərilməsi nəzərdə tutulur.

**Dövlət xidmətlərinin 2024-cü ildə “ASAN xidmət indeksi” üzrə qiymətləndirilməsi nəticələri**

- **Mərkəzi icra hakimiyyəti orqanları üzrə**

| S/s | Xidmət təminatçısı | Nəticə (%) | ASAN indeks (*) |
|---|---|---|---|
| 1 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 97.77 % | ***** |
| 2 | Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti | 96.56 % | ***** |
| 3 | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 71.25 % | **** |
| 4 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 68.15 % | **** |
| 5 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 60.08 % | **** |
| 6 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 59.35 % | *** |
| 7 | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 57.91 % | *** |
| 8 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 57.29 % | *** |
| 9 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 54.24 % | *** |
| 10 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 49.32 % | *** |
| 11 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 38.57 % | ** |
| 12 | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi | 37.6 % | ** |
| 13 | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 29.65 % | ** |
| 14 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 25.47 % | ** |
| 15 | Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidməti | 20.83 % | ** |
| 16 | Azərbaycan Respublikası Milli Arxiv İdarəsi | 19.9 % | * |
| 17 | Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi | 19.45 % | * |
| 18 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 19.41 % | * |
| 19 | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi | 17.13 % | * |
| 20 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 11.82 % | * |
| 21 | Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi | 10.79 % | * |
| 22 | Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi | 9.69 % | * |

| | | | |
|---|---|---|---|
| 23 | Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi | 6.2 % | * |
| 24 | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi | 5.77 % | * |
| 25 | Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 4.91 % | * |
| 26 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 4.32 % | * |
| 27 | Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi | 3.91 % | * |
| 28 | Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 3.02 % | * |
| 29 | Naxçıvan Muxtar Respublikasının Dövlət Arxiv İdarəsi | 2.84 % | * |
| 30 | Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 1.5 % | * |
| 31 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin işləri Üzrə Dövlət Komitəsi | 0 % | * |
| 32 | Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi | 0 % | * |
| 33 | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 0 % | * |
| 34 | Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi | 0 % | * |
| 35 | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi | 0 % | * |
| 36 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 0 % | * |
| 37 | Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 0 % | * |

- **Yerli icra hakimiyyəti orqanları üzrə**

| S/s | Xidmət təminatçısı | Nəticə (%) | ASAN indeks (*) |
|---|---|---|---|
| 1 | Bakı şəhəri Pirallahı Rayon İcra Hakimiyyəti | 64.02 % | **** |
| 2 | Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyəti | 52.91 % | *** |
| 3 | Bakı Şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti | 46.51 % | *** |
| 4 | Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti | 33.24 % | ** |
| 5 | Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyəti | 27.5 % | ** |
| 6 | Bakı şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti | 24.75 % | ** |

| | | | |
|---|---|---|---|
| **7** | Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyəti | **22 %** | ** |
| **8** | Bakı şəhəri Xəzər Rayon İcra Hakimiyyəti | **19.25 %** | * |
| **9** | Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyəti | **16.12 %** | * |
| **10** | Bakı şəhəri Səbail Rayon İcra Hakimiyyəti | **15.15 %** | * |
| **11** | Ordubad Rayon İcra Hakimiyyəti | **15.07 %** | * |
| **12** | Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti | **14.48 %** | * |
| **13** | Culfa Rayon İcra Hakimiyyəti | **9.07 %** | * |
| **14** | Sumqayıt Şəhər İcra Hakimiyyəti | **7.23 %** | * |
| **15** | Bakı Şəhəri İcra Hakimiyyəti | **7.19 %** | * |
| **16** | Kəngərli Rayon İcra Hakimiyyəti | **4.71 %** | * |
| **17** | Bakı Şəhər Nərimanov Rayon İcra Hakimiyyəti | **4.03 %** | * |
| **18** | Şərur Rayon İcra Hakimiyyəti | **0.87 %** | * |
| **19** | Babək Rayon İcra Hakimiyyəti | **0 %** | * |
| **20** | Sədərək Rayon İcra Hakimiyyəti | **0 %** | * |
| **21** | Şahbuz Rayon İcra Hakimiyyəti | **0 %** | * |
| **22** | Abşeron Rayon İcra Hakimiyyəti | **0 %** | * |
| **23** | Naxçıvan Şəhər İcra Hakimiyyəti | **0 %** | * |

- **Hüquqi şəxslər üzrə**

| S/s | Xidmət təminatçısı | Nəticə (%) | ASAN indeks (*) |
|---|---|---|---|
| **1** | "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti | **99.60 %** | ***** |
| **2** | "Azəriqaz" İstehsalat Birliyi | **59.65 %** | *** |
| **3** | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | **50.51 %** | *** |
| **4** | Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi | **48.84 %** | *** |
| **5** | Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi | **42.04 %** | *** |
| **6** | Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi | **39.24 %** | ** |

| | | | |
|---|---|---|---|
| **7** | Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi | **32.25 %** | ** |
| **8** | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi | **11.69 %** | * |
| **9** | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti | **7.82 %** | * |
| **10** | Azərbaycan Respublikası Audiovizual Şurası | **6.38 %** | * |
| **11** | “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti | **3.91 %** | * |
| **12** | "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | **3.88 %** | * |
| **13** | «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti | **0 %** | * |
| **14** | Dənizkənarı Bulvar İdarəsi | **0 %** | * |
| **15** | "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxsi | **0 %** | * |

**Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının xidmətlərinin qiymətləndirilməsinin 2017-2024-cü illərdə ulduz göstəriciləri, parametrlər və meyarlar üzrə müqayisəli təhlili**

Məlumat üçün bildiririk ki, Naxçıvan Muxtar Respublikasında mərkəzi icra hakimiyyəti orqanlarının xidmətlərinin ilk dəfə qiymətləndirilməsi ilə əlaqədar olaraq 2024-cü ildə “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə nəticələri ilə bağlı göstəricilər əvvəlki illərə nisbətdə aşağı olmuşdur.

**Ulduz göstəriciləri üzrə təhlil:**

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında bütün parametrlər üzrə ən yaxşı nəticə (5 ulduzlu) göstərən 10 xidmət müəyyən edilmişdir.

Ümumi nəticələr aşağıdakılardır.

- 10 xidmət beş ulduz üzrə (8%)
- 24 xidmət dörd ulduz üzrə (19%)
- 24 xidmət üç ulduz üzrə (19%)
- 28 xidmət iki ulduz üzrə (23%)
- 38 xidmət bir ulduz üzrə (31%)

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının ötən illər üzrə qiymətləndirmə dövrü ilə cari qiymətləndirmə dövrünün müqayisəsi aşağıdakı kimidir:

| Hesabat dövrü | bir ulduz üzrə | iki ulduz üzrə | üç ulduz üzrə | dörd ulduz üzrə | beş ulduz üzrə |
|---|---|---|---|---|---|
| **2024-cü il** | 31% | 23% | 19% | 19% | 8% |
| **2023-cü il** | 21% | 35% | 16% | 16% | 12% |
| **2022-ci il** | 34% | 21% | 11% | 18% | 16% |
| **2021-ci il** | 34% | 18% | 15% | 22% | 11% |
| **2020-ci il** | 24% | 24% | 21% | 25% | 6% |
| **2019-cu il** | 58% | 11% | 12% | 12% | 7% |
| **2018-ci il** | 25% | 33% | 35% | 7% | - |
| **2017-ci il** | 29% | 40% | 26% | 5% | - |

**Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının xidmətlərinin qiymətləndirilməsinin 2024-cü ildə ulduz göstəriciləri**

**Ulduz göstəriciləri üzrə təhlil:**

Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında bütün parametrlər üzrə ən yaxşı nəticə (5 ulduzlu) göstərən xidmət müəyyən edilməmişdir.

Ümumi nəticələr aşağıdakılardır.

- 1 xidmət dörd ulduz üzrə (2%)
- 5 xidmət üç ulduz üzrə (12%)
- 1 xidmət iki ulduz üzrə (2%)
- 36 xidmət bir ulduz üzrə (84%)

| Hesabat dövrü | bir ulduz üzrə | iki ulduz üzrə | üç ulduz üzrə | dörd ulduz üzrə | beş ulduz üzrə |
|---|---|---|---|---|---|
| **2024-cü il** | 84% | 2% | 12% | 2% | --- |

**Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarının xidmətlərinin qiymətləndirilməsinin 2017-2024-cü illərdə ulduz göstəriciləri, parametrlər və meyarlar üzrə müqayisəli təhlili**

Məlumat üçün bildiririk ki, Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti orqanlarının xidmətlərinin ilk dəfə qiymətləndirilməsi ilə əlaqədar olaraq 2024-cü ildə “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə nəticələri ilə bağlı göstəricilər əvvəlki illərə nisbətdə aşağı olmuşdur.

**Ulduz göstəriciləri üzrə təhlil:**

Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarında bütün parametrlər üzrə ən yaxşı nəticə (5 ulduzlu xidmət) göstərən xidmət müəyyən edilməmişdir.

Ümumi nəticələr aşağıdakılardır.

- 4 xidmət dörd ulduz üzrə (7%)
- 8 xidmət üç ulduz üzrə (14%)
- 17 xidmət iki ulduz üzrə (30%)
- 28 xidmət bir ulduz üzrə (49%)

Azərbaycan Respublikasının yerli icra hakimiyyəti orqanlarının ötən illər üzrə qiymətləndirmə dövrü ilə cari qiymətləndirmə dövrünün müqayisəsi aşağıdakı kimidir:

| Hesabat dövrü | bir ulduz üzrə | iki ulduz üzrə | üç ulduz üzrə | dörd ulduz üzrə | beş ulduz üzrə |
|---|---|---|---|---|---|
| **2024-cü il** | 49% | 30% | 14% | 7% | - |
| **2023-cü il** | 36% | 42% | 22% | **-** | **-** |
| **2022-ci il** | 59% | 23% | 18% | - | - |
| **2021-ci il** | 50% | 42% | 2% | 6% | - |
| **2020-ci il** | 54% | 37% | 9% | - | - |
| **2019-cu il** | 71% | 20% | 9% | - | - |
| **2018-ci il** | 72% | 23% | 5% | - | - |
| **2017-ci il** | 91% | 9% | - | - | - |

**Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarının xidmətlərinin qiymətləndirilməsinin 2024-cü ildə ulduz göstəriciləri**

**Ulduz göstəriciləri üzrə təhlil:**

Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyəti orqanlarında bütün parametrlər üzrə ən yaxşı nəticə (5 ulduzlu) göstərən xidmət müəyyən edilməmişdir.

Ümumi nəticələr aşağıdakılardır.

- 32 xidmət bir ulduz üzrə (100%)

| Hesabat dövrü | bir ulduz üzrə | iki ulduz üzrə | üç ulduz üzrə | dörd ulduz üzrə | beş ulduz üzrə |
|---|---|---|---|---|---|
| **2024-cü il** | 100% | --- | --- | --- | --- |

**Azərbaycan Respublikasının hüquqi şəxslərin xidmətlərinin qiymətləndirilməsinin 2018-2024-cü illərdə ulduz göstəriciləri, parametrlər və meyarlar üzrə müqayisəli təhlili**

Məlumat üçün bildiririk ki, Naxçıvan Muxtar Respublikasında hüquqi şəxslərin xidmətlərinin ilk dəfə qiymətləndirilməsi ilə əlaqədar olaraq 2024-cü ildə “ASAN xidmət indeksi” üzrə qiymətləndirmə nəticələri ilə bağlı göstəricilər əvvəlki illərə nisbətdə aşağı olmuşdur.

**Ulduz göstəriciləri üzrə təhlil:**

Azərbaycan Respublikasının hüquqi şəxslərin ötən ildən fərqli olaraq, bütün parametrlər üzrə ən yaxşı nəticə (5 ulduzlu) göstərən 5 xidmət müəyyən edilmişdir.

Ümumi nəticələr aşağıdakılardır.

- 5 xidmət beş ulduz üzrə (11%)
- 4 xidmət dörd ulduz üzrə (9%)
- 8 xidmət üç ulduz üzrə (18%)
- 11 xidmət iki ulduz üzrə (25%)
- 16 xidmət bir ulduz üzrə (37%)

Azərbaycan Respublikasının hüquqi şəxslərin ötən illər üzrə qiymətləndirmə dövrü ilə cari qiymətləndirmə dövrünün müqayisəsi aşağıdakı kimidir:

| Hesabat dövrü | bir ulduz üzrə | iki ulduz üzrə | üç ulduz üzrə | dörd ulduz üzrə | beş ulduz üzrə |
|---|---|---|---|---|---|
| **2024-cü il** | 37% | 25% | 18% | 9% | 11% |
| **2023-cü il** | 15% | 17% | 15% | 25% | 28% |
| **2022-ci il** | 6.76% | 9.46% | 13.51% | 13.51% | 56.76% |
| **2021-ci il** | - | 38% | - | 29% | 33% |
| **2020-ci il** | 38% | 6% | 29% | 27% | - |
| **2019-cu il** | 70% | - | - | 30% | - |
| **2018-ci il** | 81% | 19% | - | - | - |

**Naxçıvan Muxtar Respublikasının hüquqi şəxslərin xidmətlərinin qiymətləndirilməsinin 2024-cü ildə ulduz göstəriciləri**

**Ulduz göstəriciləri üzrə təhlil:**

Naxçıvan Muxtar Respublikasının hüquqi şəxslərin bütün parametrlər üzrə ən yaxşı nəticə (5 ulduzlu) göstərən xidmət müəyyən edilməmişdir.

Ümumi nəticələr aşağıdakılardır.

- 3 xidmət bir ulduz üzrə (100%)

| Hesabat dövrü | bir ulduz üzrə | iki ulduz üzrə | üç ulduz üzrə | dörd ulduz üzrə | beş ulduz üzrə |
|---|---|---|---|---|---|
| **2024-cü il** | 100% | --- | --- | --- | --- |